# ŞAHDƏNİZ 2 LAHİYƏSİ

***"Bu gün 17.12.2013 müasir Azərbaycanın tarixində tarixi gündür". Azərbaycan Prezidenti İlham Əliyev çərşənbə axşamı Bakıda "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi üzrə yekun investisiya qərarının imzalanması mərasimində deyib.Dövlət başçısının sözlərinə görə, "Şahdəniz 2" enerji layihəsi üzrə yekun investisiya qərarının qəbul edilməsi Azərbaycanın uzunmüddətli uğurlu iqtisadi inkişafını təmin edəcək.Azərbaycan Prezidenti bildirib: ""Şahdəniz 2" layihəsi dünyada ən iri enerji layihəsidir.***



Bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi, bu tarixi layihəyə cəlb olunmuş ölkələr və şirkətlər arasında geniş beynəlxalq əməkdaşlıq layihəsidir".Dövlət başçısı 19 il əvvəl - Azərbaycanın enerji strategiyasının həyata keçirilməyə başladığı 1994-cü ildə baş verən hadisələri xatırlayıb.Azərbaycan Prezidentinin sözlərinə görə, ümummilli lider Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi sayəsində müstəqilliyin əldə edilməsindən cəmi üç il, Azərbaycanda vətəndaş müharibəsinin başa çatmasından bir il və Ermənistanla atəşkəs rejimi haqqında razılığın əldə olunmasından dörd ay sonra Azərbaycan əcnəbi tərəfdaşlarla birgə "Əsrin müqaviləsi"ni imzaladı. Bu müqavilə ilk dəfə olaraq Xəzər regionunu xarici investisiyalar üçün açdı və Azərbaycanın uğurlu iqtisadi inkişafını təmin etdi.Prezident İlham Əliyev bildirib ki, bu, 20-ci əsrin müqaviləsi idi. Dövlət başçısının sözlərinə görə, "Şahdəniz" layihəsi,



çox güman ki, 21-ci əsrin layihəsi adlandırılacaq: "Lakin bugünkü mərasimə qədər müstəqil Azərbaycanın inkişafı tarixində bir neçə vacib mərhələ olub. 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağının işlənməsi layihəsi üzrə müqavilə imzalandı. Daha sonra, 1999-cu ildə Qara dənizlə Xəzər dənizini birləşdirən və Bakıdan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan ilk boru kəməri inşa edildi".Dövlət başçısı qeyd edib ki, daha sonra - 2006-cı ilin mayında Bakı-Tbilisi-Ceyhan boru kəməri istismara verildi: "Bu kəmər ilk dəfə olaraq Xəzər regionunu beynəlxalq bazarlarla, o cümlədən Aralıq dənizi bazarları ilə birləşdirdi. 2007-ci ildə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən və "Şahdəniz 2" layihəsinin bir hissəsi olan Cənubi Qafqaz qaz kəməri tikildi".Prezident İlham Əliyevin sözlərinə görə, 2011-ci ildə Azərbaycan və Avropa İttifaqı strateji enerji əməkdaşlığına dair memorandum imzaladı ki, bu sənəd Azərbaycanın enerji strategiyasının inkişafına kömək etdi, enerjinin şaxələndirilməsini və Avropaya qaz ixracını təmin etdi: "2012-ci ildə biz Türkiyə ilə Trans Anadolu qaz kəməri - TANAP üzrə tarixi saziş imzaladıq. Bu il, 2013-cü ildə Trans Adriatik boru kəməri (TAR) əsas ixrac marşrutu kimi seçildi və indi biz "Şahdəniz 2" üzrə yekun investisiya qərarını imzalayırıq"Bunuda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak etmişlər.



## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

### DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



### DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

### DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli "Azərbaycan marşı" Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

**Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır**

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**
Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**
Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti "Ulu öndər" və "Azərbaycan xalqının ümummilli lideri" titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Zülfüqarlı Elbəyi



**Dünyanı istəyən elmə sarılsın,**
**axirəti istəyən yenə elmə sarılsın.**
**Məhəmməd peyğəmbər (s.ə.s)**

Bilikdən güclü bir qüvvə yoxdur, biliklə silahlanan insan məğlubedilməzdir. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

"Təhsilsiz insan, cilasız aynaya bənzər, təhsilli isə öz azadlığını özü təmin edər" deyirlər. Belə desək, bu həyatda öz azadlığını təmin edən nümunəvi insanlarımızdan biri də Zülfüqarlı Elbəyidir.

Zülfüqarlı Elbəyi Asəf oğlu 10 fevral 2004-cü ildə Göygöl rayonunda anadan olub. 2009-cu ildə Göygöl şəhər 3 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 10-cu sinif şagirdidir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə riyaziyyat və fiziki tərbiyə fənnidir. Elbəyi müəllimlərini sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Bir şagird kimi öz uğurlarını müəllimlərinə borclu olduğunu deyir. Gələcəkdə Aviasiya Akademiyasının tələbəsi olmaq arzusundadır. Elbəyi dərslərindən əlavə idmanla da məşğul olur. Çox istedadlı biridir. O idmanın futbol və karate növləri ilə məşğuldur. Qatıldığı yarışlarda yüksək nəticələr əldə edir. Elbəyi 9 medal sahibidir və onlardan 5-i qızıl, 2-si gümüş, 2-si bürünc medaldır. Ailəsi 5 nəfərdən ibarətdir.

Biz də öz növbəmizdə Zülfüqarlı Elbəyiyə həyat yolunda bol-bol uğurlar arzu edir, ona vətənə layiq vətəndaş, valideynlərinə layiq övlad, müəllimlərini öz uğurları ilə sevindirən və gələcəkdə tələbə adını qazanan şagird olmağı arzu edirik.

# Zeynalova Nuray



**Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar.**

**Atlar sözü**

Elm sahibi insan heç bir zaman həyatını boş yaşamış hesab olunmur. Bir ərəb atalar sözündə deyildiyi kimi, “Bilikli adamın bir günü nadan adamın bütün ömrünə bərabərdir.” Elmin insan həyatında rolu böyükdür. Həqiqətən də, elm öyrənib ağıl, zəka sahibi olan insanın zənginliyini heç nə ilə müqayisə etmək mümkün deyil. Elmli insan cəsarətli olur, həyatın enişli-yoxuşlu yollarında büdrəmir, qarşısına çıxan çətinlikləri asanlıqla dəf edir. Elmin gücü ilə istənilən bağlı qapıya açar tapmaq mümkündür.

Elmə, biliyə böyük önəm verən, dərslərinə böyük məsuliyyətlə yanaşan şagirdlərimizdən biri də Zeynalova Nuraydır.

Zeynalova Nuray Nəsrəddin qızı 8 noyabr 2008-ci ildə Göygöl rayonu Quşqara kəndində anadan olub. 2016-cı ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Çalışqan, məsuliyyətli və çox bacarıq biridir Nuray. Dərslərindən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə İngilis dili fənnidir. Zeynalova ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir. Uğurlarını müəllimlərinə borclu olduğunu deyir, Əlləzova Bənövşə və İsmayılova Leyla müəllimlərin adını xüsusi olaraq qeyd edir. Ən çox sevdiyi məşğuliyyəti kitab oxumaqdır. Nurayın gözəl əl qabiliyyəti də var. Çox yaxşı şəkillər çəkir. Gələcəkdə isə həkimlik peşəsinə yiyələnmək istəyir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Zeynalov Nəsrəddin. Sürücüdür.

Anası - Zeynalova Yaqut. Evdar xanımdır.

Qardaşı - Zeynalov İbrahim. Azyaşlıdır.

Zeynalova Nuraya həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi ”Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən ”Terapevtik oftalmologiya”, ”İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, ”Vestnik oftalmologiyi” (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-ci ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

*İlham Heydər oğlu Əliyev 1961-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur.*

*1967-1977-ci illərdə Bakı şəhərində orta məktəbdə oxumuşdur.*

*1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) daxil olmuşdur.*

*MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun aspiranturasına daxil olmuşdur.*

*1985-ci ildə dissertasiya müdafiə edərək, tarix elmləri namizədi dərəcəsi almışdır.*

*1985-1990-cı illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunda müəllim işləmişdir.*

*1991-1994-cü illər ərzində özəl biznes sahəsində çalışmışdır və bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.*

*1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. "Heydər Əliyevin neft strategiyası"nın həyata keçirilməsində fəal iştirak etmişdir.*

*Suveren Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur.*

*İki dəfə, 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinə seçilmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi ilə əlaqədar olaraq deputat səlahiyyətlərinə xitam vermişdir.*

*1997-ci ildən Azərbaycanın Milli Olimpiya Komitəsinin Prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir.*

*1999-cu ildə hakim Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir.*

*2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur.*

*2003-cü ilin yanvar ayında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir.*

*2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra Azərbaycan Respublikasının Baş naziri təyin edilmişdir.*

*2003-cü il oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. O, 2003-cü il oktyabrın 31-də vəzifəsinin icrasına başlamışdır.*

*2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.*

*2008-ci il oktyabrın 15-də keçirilən seçkilərdə seçicilərin 88,73 % səsini qazanan İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. O, 2008-ci il oktyabrın 24-də vəzifəsinin icrasına başlamışdır.*

*Azərbaycan, rus, ingilis, fransız və türk dillərini mükəmməl bilir.*

*Evlidir. Üç övladı, üç nəvəsi var.*

*Prezident Əliyevin təltif olunduğu orden, mükafat və fəxri adlar aşağıdakıları əhatə edir: Heydər Əliyev ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), Rumıniya Ulduzu Ordeni (Rumıniya), Kral Əbdüləziz Ordeni (Səudiyyə Ərəbistanı Krallığı), Şərəf Ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" Ordeni (Fransa), Şeyxülislam Ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin*



*"Prepodobnıy Serqiy Radonejskiy" birinci dərəcəli Ordeni, "Böyük Kordon" Şərəf Ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf Ordeni", FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni (Polşa), I dərəcəli Knyaz Yaroslav Mudrı ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt Dövləti), Yunanıstan parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi, "Sadiq Xidmət" milli ordeninin Böyük Xaç ranqı (Rumıniya), "İsmoili Somoni" ordeni (Tacikistan).*

*Linkoln Universitetinin Fəxri Doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri Doktoru, L.N.Qumilyov – Avrasiya Milli Universitetin Professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri Doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri Doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri Doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri Professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri Doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri Doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məxdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası), Ankara Universitetinin Fəxri dokrotu (Türkiyə), Çukurova Universitetinin Fəxri Doktoru (Türkiyə).*



# Yusubov Fərhad




**"Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz".**

***H.Əliyev***

Hər şey sərf və xərc olunduqca olunduqca tükənir və əskilir, amma elm sərf olunduqca həddən ziyadə artır.

Elmin böyük bir fəziləti də budur ki, kiçiyə, böyüyə, ədnaya, əlaya heç təfavüt qoymaz. Bu kəslərdən hansında elm olsa, onu hörmətə layiq edəcəkdir. Elm yaşca kiçik adamda da olsa, onu ehtirama layiq edər, onu əla dərəcəsinə gətir. Fərhad da belələrindəndir. Gənc yaşlarından sahib olduğu elm, bilik, gözəl əxlaqı ilə hər kəsin hörmətini qazanmış, cəmiyyət içərisində öz yerini möhkəmləndirməyi bacarmışdır.

Yusibov Fərhad Habil oğlu 29 dekabr 2000-ci ildə Göygöl rayon Pənahlılar kəndində anadan olub. 2007-ci ildə Göygöl rayon Pənahlılar kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Fərhad məktəbə qədəm qoyduğu ilk gündən çalışqanlığı və dərslərinə qarşı olan həvəsi ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi bacarmışdı. O hər zaman bütün dərslərinə məsuliyyətlə yanaşan və keçdiyi fənlərin hamısından yaxşı qiymətlər alan bir şagird olmuşdur. Dəfələrlə rayon daxili fənn olimpiadalarına qatılmış və yüksək nəticələr əldə etmişdi. O, məktəbli olduğu müddətdə hər zaman ali təhsil almaq arzusunda olub və bunun üçün var gücü ilə çalışıb. Zəhmət batmaz deyirlər. Bəli, Fərhadın da çəkdiyini əziyyətlər öz bəhrəsini verdi. O, yüksək balla (420 bal) ali məktəbə, həm də elə əvvəldən arzusunda olduğu ixtisasa daxil oldu. Hal-hazırda Yusibov Gəncə Aqrar Universitetinin maliyyə audit ixtisasına qəbul oldu. Ailəsi 5 nəfərdən ibarətdir.

Biz də öz növbəmizdə Yusubov Fərhada həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# Xəlilzada Ayla



**İnsan qılıncının kəskinliyi ilə qəhrəman ola bilməz, ağlın kəskin olması lazımdır**

**Məmməd Səid Ordubadi**

Həqiqətən də, bilik qaranlıq yollarda insana işıq bəxş edən bir çıraqdır. Həyatda öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Buna görə də gənclikdə günü hədər keçirmək olmaz, çalışıb daha çox oxumaq, bilik əldə etmək lazımdır, çünki gənclikdə qazanılan bilik qocalıqda müdriklik deməkdir. Bilik insana özünü əvəzsiz müstəqil varlıq olaraq təsdiq etmək üçün lazımdır. Bilik insanın xəzinəsidir.

Savaşın, elmin vacibliyini gənc yaşlarından anlayan, var gücü ilə savad sahibi olmağa can atanlardan birgə də Xəlilzadə Ayladır.

Xəlilzadə Ayla Niyaməddin qızı 11 may 2007-ci il Gəncə şəhərində anadan olub. 2013-cü il Göygöl şəhər 6 saylı tam orta məktəbin 1-ci sinifinə qəbul. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirdidir. Çox çalışqan və çox məsuliyyətli şagirddir Ayla. O, bütün fənlərdən əla qiymətlər alır. Sinif əlaçısı və sinif nümayəndəsidir. Akademik kurs üzrə ən yüksək bal yığaraq oxuduğu məktəb üzrə 1-ci yerə sahib olmuşdur. Ayla bütün müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Bu uğurlarını isə öz müəllimlərinə borclu olduğunu deyir. Gələcəkdə isə savadlı, bilikli, işinin peşəkarı olan bir həkim (pediatr) olmaq arzusundadır. Aylanın boş zamanlarında ən çox sevdiyi məşğuliyyəti isə kitab oxumaqdır. Maraqlı hekayələr oxumağı və hekayə kitabları toplamağı çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Xəlilov Niyaməddin Fəxrəddin oğlu. AKB şirkətində işləyir.

Anası - Xəlilova Elnarə Dilqəm qızı. Evdar xanımdır.

Bacısı - Xəlilzadə Ceyran Niyaməddin qızı. Gəncə musiqi kollecinin tələbəsidir.

Xəlilzadə Ayla davamlı uğurlar diləyir, vətənə, millət layiq vətəndaş olmasını arzu edirik.



# Yusifzada Mədina



**«Ariflərə həmvarə bu söz virdizəbandır:**
**Əlməktəbü, əlməktəbü, ey millət amandır.**
**Övladı-vətən etmək üçün bizdə təali**
**Məktəblər açıb kəsb edəlim elmü kəmali!**

**M.Hadi**

Gördüklərimizi və eşitdiklərimizi dərk etdiyimiz andan etibarən öyrənməyə can atırıq. Kiçik yaşlarımızda kitablar vərəqləri, şəkilləri haqda fikirlərimiz yaranır, dünya görüşümüzü yavaş-yavaş artırmağa çalışırıq. Böyüyürük hərfləri tanıyırıq, hərfləri tapdıqca isə kitablar, bədii əsərlər, şeirlər oxumağa başlayırıq. Sözsüz ki, kitabı oxumaq həyatda irəliləməyə yetməz. İrəliləmək üçün oxumaq, anlamaq, dərslərdən əlavə mütaliə etməyi lazımdır.

Oxumağın faydalarını bilənlərdən biri də Yusibzadə Mədinədir.

Yusifzadə Mədinə Elşən qızı 23 mart 2010-cu ildə Gəncə şəhərində anadan olub. 2016-cı ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə Azərbaycan dili fənnidir. Mədinə müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Uğurlarına görə isə Əlləzova Bənövşə müəlliməyə borclu olduğunu deyir. Yusifzadənin incəsənətə də böyük marağı vardır. Gözəl piano ifaçısıdır. Boş vaxtlarında isə o kitab oxumağı çox sevir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Yusifov Elşən. İşləmir.

Anası - İsmayılova Leyla. İngilis dili müəlliməsidir.

Qardaşı - Yusifzadə Yusif. 4-cü sinif şagirdidir.

Yusifzadə Mədinəyə həyat yolunda uğurlar arzu edirik.

# Qarayeva Səma



**Oxumaq insana bilik, söhbət - hazırcavablıq, yazmaq vərdişi isə dəqiqlik aşılayır.**
**Frensis Bekon**

Bilik insanın xəzinəsidir. Hər bir insan həyatında var gücü ilə çalışıb elmli, bilikli, savadlı biri olmalıdır. Elm, bilik yiyəsi olmaq hər bir vətəndaş üçün vacib məsələdir. Savadsız cəmiyyət heç kimə lazım deyil! Yalnız savad, təhsil hesabına insan həyatda hər zaman inamla irəliləyə, vətəninə, ailəsinə, cəmiyyətə yararlı biri ola bilər.

Həyatda öz mövqeyini tutmağa, şəxsiyyət kimi var olmağa var gücü ilə çox gənc yaşlarından çalışanlardan biri də Qarayeva Səmadır.

Qarayeva Səma Amil qızı 13 iyun 2010-cu ildə Göygöl rayonu Quşqara kəndində anadan olub. 2016-cı ildə Göygöl rayonu Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 3-cü sinif şagirdidir. Az yaşlı olmasına baxmayaraq olduqca məsuliyyətli biridir Səma. O bütün dərslərindən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə riyaziyyat fənnidir. Səma ona dərs deyən bütün müəllimlərini çox sevdiyini deyir. Əldə etdiyi uğurları isə Əlləzova Bənövşə müəlliməyə borclu olduğunu deyir. Gələcəkdə savadlı, vicdanlı, sənətinin əsl peşəkarı olan bir həkim olmaq arzusundadır. Ailəsi 5 nəfərdən ibarətdir.

Tutduğu yolda Qarayeva Səmaya uğurlar arzu edir, ona vətəninə, millətinə layiq gənc olmağı və seçdiyi sənətdən asılı olmayaraq işinin peşəkarı olmağını diləyirik.



# Vəliyeva Solmaz



**Nursuz göz kimidir elmsiz ürək,**
**Nadan insanlıqdan uzaqdır gerçək.**
**Əvhədi Marağayi**

Elm sirli bir aləmdir. Elm adamının yolu işığa, aydınlığa gedən yoldur. Elmə doğru gedən yol heç vaxt hamar olmayıb. Həqiqi elmi yolla yüksələnlərin hamısı məşəqqətlərə, əzablara dözməli olub. Elm sirli bir aləmdir. Bu aləm insanı həmişə möcüzələr yaratmaq yolu ilə getməyə sövq edir. Bizcə, elmdə ən başlıca şüar "irəliyə get" olmalıdır. Yaxşı və qiymətli olan şey heç vaxt əhəmiyyətini itirmir. İnsanlar hər zaman yaxşılardan nümunə götürüb daha qiymətli olanlara can atmalıdırlar.

Özü üçün yaxşı olanı seçib və bu yolda səylə irəli adımm atanlardan biri də Vəliyeva Solmazdır.

Vəliyeva Solmaz Səxavət qızı 2 iyun 2005-ci ildə Göygöl rayonu Quşqara kəndində anadan olub. 2012-ci ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda isə elə həmin məktəbin 7-ci sinif şagirdidir. Çalışqan, bacarıqlı, məsuliyyətli şagird olan Solmaz dərs əlaçısıdır. Onun ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. Vəliyeva bir şagird kimi əldə etdiyi uğurlarını öz müəllimlərinə borclu olduğunu və onlara hər zaman minnətdar olduğunu bildirir. O özü də gələcəkdə müəllimləri kimi savadlı, bilikli, mərhəmətli və şagirdləri tərəfindən sevilən bir müəllimə olmaq arzusundadır. Gözəl əl qabiliyyəti var Solmazın. Çox yaxşı şəkillər çəkir. Boş zamanlarında isə ən çox sevdiyi məşğuliyyəti kitab oxumaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası - Vəliyev Səxavət Şubay oğlu. Kiçik bizneslə məşğuldur.

Anası - Vəliyeva Raisə Hafiz qızı. Evdar xanımdır.

Qardaşı - Vəliyev Kənan. 9-cu sinif şagirdidir.

Qardaşı - Vəliyev Sənan. Azyaşlıdır.

Biz də öz növbəmizdə Vəliyeva Solmaza həyat yolunda bol-bol uğurlar arzu edir, ona vətənə layiq vətəndaş, valideynlərinə layiq övlad, müəllimlərini öz uğurları ilə sevindirən və gələcəkdə tələbə adını qazanan şagird olmağı arzu edirik.

# Məmmədov Musa



**“Savadlı, iradəli, bilikli, bacarıqlı, dəyanətli, mərd gəncləri olmayan bir ölkənin gələcəyi ola bilməz”.**

**H.Əliyev**

Hər şey sərf və xərc olunduqca olunduqca tükənir və əskilir, amma elm sərf olunduqca həddən ziyadə artır.

Elmin böyük bir fəziləti də budur ki, kiçiyə, böyüyə, ədnaya, əlaya heç təfavüt qoymaz. Bu kəslərdən hansında elm olsa, onu hörmətə layiq edəcəkdir. Elm yaşca kiçik adamda da olsa, onu ehtirama layiq edər, onu əla dərəcəsinə gətir. Musa da belələrindəndir. Gənc yaşlarından sahib olduğu elm, bilik, gözəl əxlaqı ilə hər kəsin hörmətini qazanmış, cəmiyyət içərisində öz yerini möhkəmləndirməyi bacarmışdır.

Məmmədov Musa Mahmud oğlu 19 noyabr 2010-cu ildə Rusiya Federasiyasında anadan olub. 2016-cı ildə Göygöl şəhər 6 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 3-cü sinif şagirdidir. Balaca olmasına baxmayaraq olduqca çalışqan və məsuliyyətli şagirddir Musa. O keçdiyi bütün fənlərdən yaxşı qiymətlər alır. O dərs ilini əla qiymətlərlə bitirdiyi üçün fəxri fərmanla da təltif olunmuşdur. Ən çox sevdiyi fənn ingilis dili fənnidir. Müəllimlərə gəldikdə isə Musa ona dərs deyən bütün müəllimləri sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Onun həm də gözəl əl qabiliyyəti var. Çox yaxşı şəkillər çəkir. Məmmədov gələcəkdə işinin sözün əsl mənasında peşəkarı olan bir həkim olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Biz də öz növbəmizdə Musaya həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.



# Nağdalızadə İsmayıl



**“Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir”.**

**Həzrəti Məhəmməd**

Elm tükənməz xəzinədir. Bu, bir xəzinədir ki, onu sandıqda saxlamağa və qorumağa ehtiyac yoxdur. Elm bir dövlətdir ki, onu nə itirmək,nə də oğurlatmaq mümkündür. Bu səbəbdən onun qədir və qiyməti hər şeydən alidir. Çünki elm bu halda puldan və paradan zəngin, topdan və tüfəngdən ötgün, xəncərdən və qılıncdan kəskindir. Nəcabət və hörmət bu halda o kəsdir ki, onun mükəmməl sürətdə elmi və məlumatı vardır.

Bir nəfər alim şəxs elmini sərf etse,özündən neçə yüz alim meydana gətirər, həm də öz elm və məlumatını ziyaləndirər. Bilikli şəxs bir şama bənzər ki,ondan neçə-neçə şamlar yandırmaq mümkündür. Bir şamın nuru başqa şamları alovlandırmaqla özü kimi çox-çox çıraqlar və məşəllər törədər.

Savadlı, bilikli olmağa var gücü ilə çalışan, ətrafını nurlandırmağa səy göstərənlərdən biri də Nağdalızadə İsmayıldır.

Nağdalızadə İsmayıl Nəriman oğlu 2 oktyabr 2001-ci ildə Göygöl rayonunda anadan olub. 2007-ci ildə Göygöl şəhər 6 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Çox çalışqan və məsuliyyətlə şagird olub İsmayıl. O, məktəbə gəldiyini elə ilk gündən öz müəllimlərini sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağın bacarmışdı. Hər zaman üçün fənlərdən əla qiymətlər alırdı. Məktəbdə oxuduğu müddətdə ərzində o hər zaman ali təhsil almaq arzusunda idi. Müəllimləri İsmayılın gələcəkdə tələbə adını qazanacağına şübhə etmirdi, elə o özü də bunun üçün var gücü ilə çalışırdı. Zəhmət heç zaman bəhrəsiz qalmır deyirlər. Bəli, elə Nağdalızadənin də zəhməti hədər olmadı. Belə ki, o yüksək bal, 628 balla tələbə adını qazandı. Hal-hazırda o Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin 1-ci kurs tələbəsidir. Ailəsi 6 nəfərdən ibarətdir.

Atası - Nağdalıyev Nəriman Məmməd oğlu 12 aprel 1958-ci ildə Qazax rayonu Qaymaqlı kəndində anadan olub.

Anası - Nağdalıyeva Məhbubə Məsmalı qızı 1963-cü ildə anadan olub.

Bacısı - Nağdalızadə Nərminə. Ali təhsillidir.

Bacısı - Nağdalızadə Türkan. Ali təhsillidir.

Bacısı - Nağdalızadə Əsmər. Ali təhsillidir.

Biz də öz növbəmizdə İsmayıla həyat yolunda uğurlar diləyir, millətinə, torpağına, vətəninə layiq şəxsiyyət olmağını arzu edirik.

# İbrahimzada Bəyaz



**Elmlər insan ruhunun gözünü təmizləyir və yenidən açır. Ruhun gözü min dənə adi gözdən önəmlidir, çünki ancaq onun köməyi ilə həqiqəti görmək mümkündür.**
**Platon**

Elmdə son hədd, axırıncı kəşf anlayışı yoxdur. Elm dolaşıqlığa düşə-düşə, dolaşıqlığı aça-aça irəliləyir, inkişaf edir. Elmin əhatə dairəsi hüdudsuzdur. Elm yolunda atılan addımlar hələ uşaq yaşlarından başlamalıdır, çünki bu yol insanı işığa, aydınlığa aparan yoldur.

Bu yola həvəslə addım atan, oxumağa, öyrənməyə can atanlarımızdan biri də İbrahimzadə Bəyazdır.

İbrahimzadə Bəyaz Rövşən qızı. 23 oktyabr 2014-cü ildə Göygöl rayonunda dünyaya göz açıb. 2010-cu ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hızırda isə elə həmin məktəbin 9-cu sinif şagirdidir. Çox bacarıqlı və çalışqan şagirdidir Bəyaz. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Dəfələrlə dərs ilini əla qiymətlərlə bitirdiyi üçün tərifnamələrə layiq görülüb. Ən çox sevdiyi fənlər riyaziyyat, Azərbaycan dili və ingilis dili fənləridir. Bəyaz ona dərs deyən müəllimlərin hər birini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini dönə-dönə vurğulayır. Əldə etdiyi uğurlara görə müəllimlərinə borclu olduğunu deyir və bu sırada Könül müəllimə, Nuriyyə müəllimə, Kəmalə müəllimə, və Ələddin müəllimin adlarını xüsusi olaraq qeyd edir. Gələcəkdə ibtidai sinif müəlliməsi olmaq arzusundadır. Boş vaxtlarında ən sevdiyi məşğuliyyəti isə kitab oxumaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası - İbrahimov Rövşən 1975-ci ildə Göygöl rayonunda anadan olub. Hal-hazırda hava limanı işçisidir.

Anası - İbrahimova Maral 1977-ci ildə Göygöl rayonunda anadan olub. Evdar xanımdır.

Bacısı - İbrahimova Əsmər 2006-cı ildə Göygöl rayonunda anadan olub. Hal-hazırda 7-ci sinif şagirdidir.

Qardaşı - İbrahimov Səməndər 2014-cü ildə anadan olub. Azyaşlıdır.

İbrahimzadə Bəyaza həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik.



# İsmayılova Zenfira



**Biliyin ağası olmaq üçün zəhmətin köləsi olmaq lazımdır.**
**Onore de Balzak**

Hər bir ölkənin gələcəyi oradakı təhsilin səviyyəsi ilə çox bağlıdır. Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindədir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca istiqamət seçib.

Dövlətimizin gənclər üçün yaratdığı şəraitdən layiqincə istifadə edən, vətənimizə, millətimizə layiq vətəndaş olmağa çalışan şagirdlərimizdən biri də Əsgərov Muraddır.

İsmayılova Zenfira Azər qızı 20 may 2004-cü ildə Gəncə şəhərində anadan olub. 2012-ci ildə Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 7-ci sinif şagirdidir. Yaxşı qiymətlərlə oxuyur Zenfira, çox çalışqan və bacarıqlı şagirdidir. Davranışları və dərslərinə olan həvəsi ilə öz müəllimlərinin sevimlisinə çevrilməyi və onların hörmətini qazanmağın bacarmışdır. Bütün fənləri maraqla oxuyan İsmayılova ən çox biologiya, rus dili, Azərbaycan dili və ədəbiyyat fənlərini sevdiyini deyir. Fənn müəllimlərinin hər birini çox sevdiyini, onlara böyük hörmət bəslədiyini deyir. Boş zamanlarında ən çox sevdiyi məşğuliyyəti kitab oxumaq və internetdən maraqlı məlumatlar toplamaqdır. Gələcəkdə ədalətli bir hüquq işçisi olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

İsmayılova Zenfiraya həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik.

# Hüseynli Fatima



**“Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır”**

**Frensis Fukuyama**

Zaman keçdikcə illər, ayları günlər ilə doldurub, geridə qoyduqca müasir dövrə doğru addımlayırıq. Elm və mərifət, tərəqqi və mədəniyyət dövründə yaşayırıq. Belə mədəniyyət dövründə özümüzü yaraşdıra bilmək üçün səadətli və irəliyə doğru addımlayaraq yaşaya bilmək üçün məktəbə gedib dərsi diqqətlə dinləməliyik, lakin sırasında bilməliyik ki, tərəqqi etmək üçün yalnız məktəbdə oxumaq kifayət etməz. Məktəbdə oxuduqlarımızı faydalı kitablat və məcmuələrin mütaliəsi ilə möhkəmləndirməliyik.

Sadaladıqlarımızı layiqincə yerinə yetirən, incəsənətə, elmə, öyrənməyə meyilli olan uşaqlarımızdan biri də Hüseynli Fatimədir.

Hüseynli Fatimə Əli qızı 13 oktyabr 2007-ci ildə Göygöl rayon Quşqara kəndində dünyaya göz açıb. 2014-cü ildə Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Çalışqan və çox bacarıqlı şagirdidir Fatimə. Bütün fənlərdən yaxşı qiymətlər alır. Dərs ilini yaxşı qiymətlərlə bitirdiyi üçün dəfələrlə tərifnamələrə layiq görülmüşdür. Onun ən çox sevdiyi fənn Azərbaycan tarixi fənnidir. Hüseynli ona dərs deyən bütün müəllimlərini çox sevdiyini və onlara böyük hörmət bəslədiyini deyir. Elə özü də gələcəkdə müəllimləri kimi savadlı, bilikli, mərhəmətli, şagirdlərinin sevimlisi olan bir müəllimə olmaq arzusundadır. Bədii ədəbiyyata böyük marağı vardır. Boş zamanlarında kitab oxumağı çox sevir. Ailəsi 5 nəfərdən ibarətdir.

Hüseynli Fatiməyə həyat yolunda uğurlar arzu edirik.



# Hüseynova Asima



**Nadanlar elmə həqarətlə baxır, savadsızlar ona heyran olur, müdriklər isə ondan bəhrələnirlər.**

**Frensis Bekon: İngilis alimi**

Elm sirli bir aləmdir. Elm adamının yolu işığa, aydınlığa gedən yoldur. Elmə doğru gedən yol heç vaxt hamar olmayıb. Həqiqi elmi yolla yüksələnlərin hamısı məşəqqətlərə, əzablara dözməli olub. Elm sirli bir aləmdir. Bu aləm insanı həmişə möcüzələr yaratmaq yolu ilə getməyə sövq edir. Bizcə, elmdə ən başlıca şüar ”irəliyə get” olmalıdır. Yaxşı və qiymətli olan şey heç vaxt əhəmiyyətini itirmir. İnsanlar hər zaman yaxşılardan nümunə götürüb daha qiymətli olanlara can atmalıdırlar.

Özü üçün yaxşı olanı seçib və bu yolda səylə irəli addım atanlardan biri də Hüseynova Asimədir.

Hüseynova Asimə Firdovsi qızı 3 may 2004-cü ildə Göygöl rayonunda anadan olub. 2010-cu ildə Göygöl rayon Bəhman Alzamanov adına tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 9-cu sinif şagirdidir. Çox çalışqan şagird olan Asimə bütün dərslərindən yaxşı qiymətlər alır. O, dərs ilini əla qiymətlərlə bitirdiyi üçün dəfələrlə tərifnamələrlə təltif olunub. Onun ən çox sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat və ingilis dili fənləridir. Asimə hər zaman bir şagird kimi əldə etdiyi uğurlarını öz müəllimlərinə borclu olduğunu və onlara minnətdarlıq bildirdiyini. Bütün müəllimlərini çox sevdiyini, onlara böyük hörmət bəslədiyini vurğulayır və bu sırada Nuriyyə müəllimə, Kəmalə müəllimə və Könül müəllimənin adını xüsusi olaraq qeyd edir. Elə özü də gələcəkdə müəllimləri kimi savadlı, şagirdləri tərəfindən sevilən bir müəllimə olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Hüseynov Firdovsi 1977-ci ildə Göygöl rayonunda anadan olub. SOCAR şirkətdə sürücü işləyirlər.

Anası - Hüseynova Kəmalə 1981-ci ildə Göygöl rayonunda anadan olub. Evdar xanımdır.

Qardaşı - Hüseynov Eltun 2002-ci ildə Göygöl rayonunda anadan olub. Hal-hazırda 11-ci sinif şagirdidir.

Bacısı - Hüseynova Roza 2005-ci ildə Göygöl rayonunda anadan olub. Hal-hazırda 8-ci sinif şagirdidir.

Asiməyə tutduğu yolda müvəffəqiyyətlər, bol-bol uğurlar arzu edirik. Həyat yolların daima açıq olsun!

# Həsənov İlkin



**Təbiət insanı zülmətlə dövrələyir və onu daim işığa doğru getməyə məcbur edir. Bu işıq isə elmdir.**

**İohann Volfanq Göte:**
**Alman mütəfəkkiri**

Elmsiz və biliksiz insanın könlü bar verməyən ağaca bənzər. İnsan elm və biliklə nemət yaradaraq ömrünü dəyərləndirər. Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: "Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır." Bəli, həyatın, yaşamın əsas silahı elmdir.

Həyatda var gücü çalışıb möhkəm mövqe sahibi tutmağa, savad yiyəsi olmağa çalışan gələcəyinin parlaq olacağına inam oyadanların biri də Həsənov İlkindir.

Həsənov İlkin Zaur oğlu 23 iyul 2003-cü ildə Göygöl rayonunda dünyaya göz açıb. 2009-cu ildə Göygöl şəhər S. Vurğun adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 10-cu sinif şagirdidir. Çox çalışqan şagirdidir İlkin. Bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənn isə riyaziyyat fənnidir. Müəllimləri onun gələcəyinin parlaq olacağına çox böyük inam bəsləyirlər. İlkin dərslərindən əlavə idmana da böyük maraq göstərir. O idmanın karate növü ilə məşğul olur. Karate üzrə Respublika 2-cisidir. Gələcəkdə polis olmaq istəyir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası - Həsənov Zaur. Operator vəzifəsində çalışır.

Anası - Həsənova Elnarə. Tibb bacısıdır.

Bacısı - Həsənova Tamara. Məktəblidir.

Həsənov İlkinə həyat yolunda müvəffəqiyyətlər arzu edir, bol-bol uğurlar diləyirik.



# Hüseynli Dursun



**Təhsil xəzinədir, elm onun açarı.**
**Atalar sözü**

Dahi Azərbaycan şairi Seyid Əzim Şirvani belə deyib. Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmada bilik, savad ən önəmli amildir.

Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır.

Elmə, bilik qazanmağa, cəmiyyətimizə yararlı biri kimi yaşamağa can atanlarımızdan biri də Hüseynli Dursundur.

Hüseynli Dursun Əli qızı 12 dekabr 2003-cü ildə Göygöl rayonunda anadan olub. 2010-cu ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda isə elə həmin məktəbin 9-cu sinif şagirdidir. Çox bacarıqlı və məsuliyyətli biridir Dursun. Məktəbə qədəm basdığı ilk gündən dərslərinə olan həvəsi, çalışqanlığı və davranışları ilə müəllimlərinin hörmətini qazanmış və onların sevimlisinə çevrilməyi bacarmışdır. O, bütün fənləri həvəslə oxuduğunu deyir, ən çox sevdiyi fənlər isə ədəbiyyat, ingilis dili, tarix, kimya və biologiya fənləridir. Hüseynli bir şagird kimi əldə etdiyi uğurlarına görə öz müəllimlərinə borclu olduğunu, onlara minnətdarlıq bildirdiyini deyir və bu sırada Könül müəllimə, Nuriyyə müəllimə, Kəmalə müəllimə və Şahnaz müəllimənin adını xüsusi olaraq qeyd edir. Elə özü də gələcəkdə müəllimləri kimi savadlı, mərhəmətli, sevilən bir müəllimə olmaq arzusundadır. Çox gözəl əl qabiliyyəti də Dursunun gözəl şəkillər çəkir. Boş zamanlarında isə ən çox sevdiyi məşğuliyyəti kitab oxumaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası - Hüseynov Əli Ənvər oğlu. Ticarətçidir.

Anası - Qəhrəmanova Xəyalə Zakir qızı. B. Alzamanova adına Quşqara kənd tam orta məktəbində psixoloq vəzifəsində çalışır.

Bacısı - Hüseynli Fatimə
Qardaşı - Hüseynli Məhəmməd
Hüseynli Dursuna həyat yolunda uğurlar arzu edirik.

# Əlirzayev Ömər



**“İdmanla məşğul olan hər bir şəxs həm özünün fiziki sağlamlığını təmin edir, həm də ki, cəmiyyətdə idmanın, bədən tərbiyəsinin insan üçün nə qədər lazımlı olduğunu sübut edir”.**

**H. Əliyev**

Sağlam bədəndə sağlam ruh olar, deyib atalar. Əlbəttə ki, cismi sağlam olmayan insanın ruhu da sağlam olmaz. Buna görə də zamanın azlığından və məkandan asılı olmayaraq hər kəs mütləq şəkildə idmanla məşğul olmalıdır. Sağlam bədən sağlam düşüncə deməkdir.

Əbəs yerə idmandan, insanın fiziki sağlamlığdan söhbət açmadıq. Bunu ona görə etdik ki, hazırda sizə kiçik yaşlarında həm təhsilə, həm də idmana böyük marağı olan birindən Əlirzayev Ömərdən söz açacağıq.

Əlirzayev Ömər Nurəddin oğlu 8 dekabr 2008-ci ildə Göygöl rayonunda anadan olub. 2014-cü ildə Göygöl şəhər S. Vurğun adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Ömər bütün fənlərdən yaxşı qiymətlər alır. Onun ən çox sevdiyi fənlər isə riyaziyyat və təsviri incəsənət fənləridir. Əlirzayev həm də idmana böyük maraq göstərir. O, idmanın karate növü ilə məşğuldur. Çox istedadlı biridir. Qatıldığı idman yarışlarında dəfələrlə medal qazanıb, Bakı şəhərində keçirilən karate yarışında 1-ci yerə sahib olub. Ömər gələcək həyatını da idmanla bağlamaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.

Əlirzayev Ömərə həyat yolunda müvəffəqiyyətlər və uğurlar arzu edirik. Gələcəyin parlaq olsun!



# Hacızadə Ayxan



**Xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir.**

**H. Əliyev**

Güclü dövlət, sağlam cəmiyyət qurmağın ən vacib amillərindən birincisi zehni, ikincisi fiziki cəhətdən sağlam gənclikdir. Sağlam və savadlı gəncliyi olmayan bir dövlət məhvə məhkumdur. Sağlamlığın ən vacib amili isə təbii ki, idmandır. Lakin idman təkcə fiziki qüvvə və sağlamlıq demək deyil. İdman elə bir sahədir ki, idmançılarımız müxtəlif ölkələrdə yarışlarda iştirak edir, qələbələr qazanırlar və hər dəfə müstəqil Azərbaycanın adını ucaldırlar. Vətənimizin himni çalınır, bayrağı qaldırılır və Azərbaycanımız dünyanın müxtəlif ölkələrində tanınır. Demək olar ki, idman kimi Azərbaycanın müstəqilliyinin rəmzlərini nümayiş etdirən ikinci bir vasitə yoxdur.

Vətən bayrağının daima ucalarda dalğalanmasına çalışan çox istedadlı gənc idmançılardan biri də Hacızadə Ayxandır.

Hacızadə Ayxan Zabil oğlu 15 dekabr 2006-cı ildə Göygöl rayonunda anadan olub. 2012-ci ildə Göygöl şəhər 3 saylı tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 6-cı sinif şagirdidir. Çalışqan və çox məsuliyyətli şagirddir Ayxan. O bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə tarix, riyaziyyat, ingilis dili, Azərbaycan dili fənləridir. Hacızadə bütün fənn müəllimlərinə hörmət etdiyi və onları çox sevdiyi deyir. Ən çox sevdiyi müəllimlər sırasında isə Vüsalə müəllimə, Sevda müəllimə, Rəfiqə müəllimə, Natəvan müəllimə və Aytəkin müəllimənin adlarını xüsusi olaraq vurğulayır. Gələcəkdə Polis Akademiyasının tələbəsi olmaq arzusundadır. Ayxan dərslərindən əlavə idmanın karate növü ilə məşğul olur. Bu idman növü üzrə çoxlu nəaliyyətləri var. O karate üzrə 12 medal sahibidir. Bunlardan 5-i qızıl, 5-i gümüş, 2-si bürünc medaldır. Ayxan həm də karate üzrə Respublika 1-cisi və Respublika 2-cisidir. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası - Hacıyev Zabil. Hərbçidir.

Anası - Göygöl şəhər 3 saylı tam orta məktəbində müəllimədir.

Bacısı və qardaşı da məktəblidirlər.

Biz də öz növbəmizdə Hacızadə Ayxana uğurlar, müvəffəqiyyətlər və idman kürüsünün ən yüksək pillələrini arzulayırıq.

# Atakişiyeva Aysel



**"Cənnətə gedən yollar çoxdur. Onlardan ən qısası elm və təhsildən keçənidir".**

***Həzrəti Məhəmməd***

Elmin insan həyatının çiçəklənməsində müstəsna rolu vardır. Elmi nailiyyətlər nəticəsində bəşər həyatı daha da gözəlləşməyə doğru irəliləməkdədir. Elm zülmətdən işıqlığa və səadət nuruna yetişməkdə bəlkə də yeganə vasitədir. Hər bir cəmiyyətin, ümumiyytlə hər bir fərdin həyat səviyyəsinin yüksəlişi, tərəqqisi, həmin toplumda elmin inkişafından, elmə marağın hansı səviyyədə olmasından və daha bir çox elmlə bağlı ünsürlərin həmin cəmiyyətdə olub-olmamasından asılıdır. Cəhalət və savadsızlığın hakim olduğu bir təbəqə və cəmiyyət sonunda süquta məhkumdur.

Təhsilli, bilikli, savadlı olmağın vacibiyyətini yaxşı anlayanlardan biri də Atakişiyeva Ayseldir.

Atakişiyeva Aysel Məhərrəm qızı 31 dekabr 2003-cü ildə Gəncə şəhərində anadan olub. 2010-cu ildə Göygöl rayon Bəhman Alzamanov adına Quşqara kənd tam orta məktəbinin 1-ci sinfinə qəbul olub. Hal-hazırda elə həmin məktəbin 9-cu sinif şagirdidir. Aysel məktəbə gəldiyi ilk gündən çalışqanlığı və davranışları ilə müəllimlərinin sevimlisinə çevrilmişdir və onların hörmətini qazanmağın bacarmışdır. O, bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlər isə ingilis dili, Azərbaycan dili və biologiya fənləridir. Atakişiyev bir şagir kimi əldə etdiyi uğurlarını müəllimlərinə borclu olduğunu, onlara minnətdarlıq bildirdiyini deyir və bu sırada Könül müəllimə, Nuriyyə müəllimə, Kəmalə müəllimən və Güloğlan müəllimin adını xüsusi olaraq qeyd edir. Ayselin bədii ədəbiyyata böyük marağı var. Boş zamanlarında kitab oxumağı çox sevir. O gələcəkdə savadlı, vicdanlı, vətəninə və millətinə layiq peşəkar bir həkim olmaq arzusundadır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atakişiyeva Aysələ həyat yolunda uğurlar və nailiyyətlər arzu edirik.

# Bayramlı Ülvi




**İdman, bədən tərbiyəsi müstəqil Azərbaycanın həyatında dövlət qayğısı ilə əhatə olunaraq, eyni zamanda, həm gənclər üçün, həm də bütün cəmiyyətimiz üçün zəruri bir sahəyə çevrilibdir. Güman edirəm ki, bu dönüş, yəni bu hadisə gələcək üçün çox gözəl əsasdır və bizim millətimizin, xalqımızın fiziki sağlamlığı üçün, təkcə fiziki sağlamlığı deyil, zehni sağlamlığı üçün, sağlam gənc nəsil yetirməsi üçün çox gözəl əsasdır və biz hamımız bu sahəni bundan sonra daha da inkişaf etdirməliyik.**

**H. Əliyev**

Sağlam bədəndə sağlam ruh olar, deyib atalar. Əlbəttə ki, cismi sağlam olmayan insanın ruhu da sağlam olmaz. Buna görə də zamanın azlığından və məkandan asılı olmayaraq hər kəs mütləq şəkildə idmanla məşğul olmalıdır. Sağlam bədən sağlam düşüncə deməkdir.

Əbəs yerə idmandan, insanın fiziki sağlamlığdan söhbət açmadıq. Bunu ona görə etdik ki, hazırda sizə kiçik yaşlarında həm təhsilə, həm də idmana böyük marağı olan birindən Bayramlı Ülvidən söz açacağıq.

Bayramlı Ülvi Yusif oğlu 23 may 2005-ci ildə Gəncə şəhərində anadan olub. 2011-ci ildə Göygöl şəhər S. Vurğun adına 3 nömrəli tam orta məktəbin 1-ci sinfinə qəbul olub. Hal-hazırda isə elə həmin məktəbin 8-ci sinif şagirdidir. Ülvi məktəbə gəldiyi ilk gündən çalışqanlığı və davranışları ilə müəllimlərinin sevimlisinə çevrilmişdir. O bütün fənlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fənlərdən isə riyaziyyat, fizika və ədəbiyyat fənləridir. Sınaq imtahanlarında daima yüksək nəticələr əldə edir. Ülvi ona dərs deyən bütün müəllimlərini çox sevdiyini və onların hər birinə böyük hörmət bəslədiyini deyir. Dərslərindən əlavə isə idmana böyük həvəs göstərir. O, idmanın şahmat və karate növləri ilə məşğuldur. Şahmat və karate üzrə qatıldığı yarışlardan hər zaman yüksək nəticələr göstərir. Boş zamanlarında isə Futbol oynamağı çox sevir. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası - Bayramov Yusif Yaqub oğlu. Lombarda işləyir.

Anası - İbrahimova Səbinə Sahib qızı. Ali təhsilli riyaziyyat müəllimləsidir. Hal-hazırda işləmir.

Qardaşı - Bayramlı Kənan Yusif oğlu. Hal-hazırda 6-cı sinif şagirdidir.

Bacısı - Bayramlı Nərmin Yusif qızı. Hal-hazırda 1-ci sinif şagirdidir.

Bayramlı Ülviyə gələcəkdə uğurlar arzu edirik. Ona müəllimlərinin və valideynlərinin fəxri olmağı diləyirik.






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:

Telefon nömrələri:
(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

# TƏHSİL YENİLİKLƏRİ

Xüsusi buraxılış Oktyabr 2018-ci il (32)









# EUROHOME

*Müasir dam örtükləri*

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

RUUKKI

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**



**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**



Təsisçi:
İsa Əkbərov

Baş redaktor:
Samir Əkbərov

Müxbirlər:
Vəfa Babayeva
Gülarə Mirzəyeva

"Təhsil yenilikləri" qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan Respublikası
Bakı şəhəri, Mətbuat prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib, çap olunmuşdur.

Tiraj - 500

Tel: 070-988-82-83
070-255-78-78